## AZƏRBAYCAN RESPUBLİKASI
## DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

# GÖMRÜK ORQANLARI TƏRƏFİNDƏN MALLARIN TƏSNİFATININ VƏ MƏNŞƏ ÖLKƏSİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ ÜZRƏ MƏCBURİ QƏRARLARIN QƏBUL EDİLMƏSİNƏ DAİR[1]

# M E T O D İ K A



2026

[1] https://customs.gov.az/az/sahibkarlar-ucun/mecburi-qerarlar

# MÜNDƏRİCAT


1. **Ümumi müddəalar ...........................................................................3**
2. **Əsas anlayışlar ...............................................................................3**
3. **Məcburi qərarın qəbul edilməsinə dair müraciətin edilməsi..........4**
4. **Məcburi qərarın qəbul edilməsinə dair müraciətlərə baxılması ....5**
5. **Məcburi qərarın dəyişdirilməsi və ya ləğv edilməsi........................7**
6. **Məlumatların nəşri və məxfiliyi .......................................................7**
7. **Yekun müddəalar ............................................................................8**

## 1. Ümumi müddəalar

1.1. “Gömrük orqanları tərəfindən malların təsnifatının və mənşə ölkəsinin müəyyənləşdirilməsi üzrə məcburi qərarların qəbul edilməsinə dair” Metodika (bundan sonra - Metodika) Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin (bundan sonra - Gömrük Məcəlləsi) 50.1-ci, 222.5-ci, 223.4-cü, 321.2-ci, 322.1.3-cü, Azərbaycan Respublikasının “Gömrük tarifi haqqında” Qanununun 19.6-cı maddələrinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 yanvar tarixli 3 nömrəli Qərarı ilə təsdiq edilmiş “Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydaları”na əsasən malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsinin sürətləndirilməsinə əlverişli şərait yaratmaq, eyni keyfiyyətə, eyni texniki göstəricilərə, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə eyni kod altında sinifləşdirilməli olan və eyni mənşə ölkəsinə malik mallara dair təkrar gömrük ekspertizalarının aparılmasının qarşısını almaq, gömrük nəzarəti və rəsmiləşdirilməsinə sərf olunan vaxt və maliyyə itkisini minimuma endirmək məqsədilə hazırlanmışdır və konkret mallar və əməliyyatlarla əlaqədar malların təsnifatının və ya mənşə ölkəsinin əvvəlcədən müəyyənləşdirilməsi barədə ərazi və ixtisaslaşdırılmış gömrük idarələri (bundan sonra - gömrük orqanları) tərəfindən məcburi qərarın qəbul edilməsi mexanizmini tənzimləyir.

1.2. Gömrük orqanları tərəfindən məcburi qərarlar bir qayda olaraq şəxsin müraciəti əsasında qəbul edilir.

1.3. Malların təsnifatının və ya mənşə ölkəsinin müəyyənləşdirilməsinə dair müraciətlərin qəbulu və qeydiyyata alınması, onlara baxılması, məcburi qərarların qəbul edilməsi və ya onların qəbul edilməsindən imtina olunması, məcburi qərarlarda dəyişiklik və onların ləğv edilməsi prosesləri gömrük xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (bundan sonra - VAİS) vasitəsilə aparılır.

1.4. Məcburi qərarların qəbul edilməsindən imtina olunması, onların ləğv edilməsi və ya dəyişiklik edilməsi bu Metodikaya uyğun olaraq həyata keçirilir.

1.5. Gömrük orqanları tərəfindən məcburi qərar qəbul edilərkən mallar bir qayda olaraq müraciət edən şəxs tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş gömrük ekspertizasının aparılmasına görə gömrük yığımı ödənilməklə gömrük ekspertizasından keçirilməlidir.

## 2. Əsas anlayışlar

2.1. Bu Metodikada aşağıdakı əsas anlayışlardan istifadə olunur:

2.1.1. **müraciət edən şəxs** - malların təsnifatının və ya mənşə ölkəsinin əvvəlcədən müəyyənləşdirilməsi məqsədilə gömrük orqanlarına müraciət edən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs;

2.1.2. **malın təsnifatı** - malın xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun olaraq təsnif edilmiş kodu;

2.1.3. **mənşə ölkəsi** - gömrük tarifinin, miqdar məhdudiyyətlərinin, yaxud ticarətə aid başqa tədbirlərin tətbiqi üçün nəzərdə tutulmuş meyarlara uyğun olaraq malın tamamilə istehsal və ya kifayət qədər emal edildiyi ölkə;

2.1.4. **prob** - gömrük laboratoriyasına təqdim edilməsi məqsədilə tədqiqat üçün tələb olunan minimum miqdarda (sayda, ölçüdə) götürülmüş və malın bütün həcminin tərkib və xassələrini xarakterizə edən mal və ya malın bir hissəsi;

2.1.5. **nümunə** - bütün mal (məhsul) partiyasının və ya seriyasının struktur, tərkib və xassələrinə uyğun gələn mal (məhsul) vahidi, yaxud yazılı və ya digər təsviretmə formalarında təqdim edilmiş tək obyekt.

2.2. Bu Metodikada istifadə edilmiş digər anlayışlar Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulan mənaları ifadə edir.

## 3. Məcburi qərarın qəbul edilməsinə dair müraciətin edilməsi

3.1. Şəxs malın təsnifatının və ya mənşə ölkəsinin müəyyən edilməsi məqsədilə gömrük orqanlarına yazılı və ya elektron formada müraciət edir *(bu Metodikaya 1 və 2 nömrəli Əlavələr)*.

3.2. Malın təsnifatına və mənşə ölkəsinə dair məcburi qərar hər bir mal adı üzrə ayrı-ayrılıqda qəbul edilir.

3.3. **Müraciətdə malın təsnifatının və ya mənşə ölkəsinin müəyyənləşdirilməsi üçün aşağıdakı məlumatlar əks olunmalıdır:**

3.3.1. müraciət edən şəxs haqqında məlumatlar (müraciət edən fiziki şəxs olduqda onun soyadı, adı və atasının adı, VÖEN-i, elektron poçt ünvanı, əlaqə nömrəsi, hüquqi şəxs olduqda isə hüquqi şəxsin adı, VÖEN-i, elektron poçt ünvanı, əlaqə nömrəsi);

3.3.2. malın təsviri (malın adı, marka və model göstəricisi, miqdarı, çəkisi, ölçüsü, xarici görünüşü, tərkibi, habelə onun hazırlanmasında istifadə olunan materiallar, təyinatı və istifadə dairəsi, texniki xüsusiyyətləri, funksiyaları, qablaşdırılmasının təsviri, daşınma növü, istehsalçı müəssisə və ölkə, eləcə də malın gömrük rəsmiləşdirilməsinə təqdim olunduğu andakı vəziyyəti).

3.4. **Müraciətə malların təsvirini müəyyən etmək üçün aşağıdakı müvafiq sənədlər əlavə edilir:**

3.4.1. keyfiyyət sertifikatları, sınaq protokolları, akkreditə olunmuş ekspert təşkilatlarının ekspertiza aktları;

3.4.2. texniki və normativ-texniki sənədlər (texniki pasportlar, reseptlər və s.);

3.4.3. üzvi və qeyri-üzvi mallara, kimyəvi maddələrə və tərkiblərə dair Maddənin təhlükəsizlik məlumatları (MSDS - Material safety data sheet) və Texniki məlumat vərəqi (TDS - Technical data sheet) sənədləri;

3.4.4. sxemlər, çertyojlar və şəkillər;

3.4.5. təqdimat və məlumat broşürləri;

3.4.6. müqavilə;

3.4.7. invoys;

3.4.8. spesifikasiya;

3.4.9. qablaşdırma vərəqəsi.

3.5. **Malın mənşə ölkəsinin müəyyənləşdirilməsinə dair müraciətə isə bu Metodikanın 3.4-cü bəndində qeyd olunanlarla yanaşı, aşağıdakı sənədlərdən biri və ya bir neçəsi əlavə edilir:**

3.5.1. malın tam istehsal olunduğu ölkəni göstərən təsdiqedici sənəd (müraciət malların preferensial və ya qeyri-preferensial mənşəyinin müəyyən edilməsi ilə əlaqədar olduqda, digər təsdiqedici sənədlərlə birlikdə);

3.5.2. istehsal mərhələləri bir və ya bir neçə ölkədə baş verdiyi halda, həyata keçirilən istehsal və ya emal proseslərinə dair sənədlər;

3.5.3. malın istehsal prosesinin vəziyyətinə dair məlumatları təsdiq edən sənədlər (çeşidli yığılma, toplam yığılma və s.);

3.5.4. idxal olunan malın istehsalında istifadə edilən materiallara dair məlumatları əks etdirən sənədlər (materialların təsviri, tarif təsnifatı, mənşə ölkəsi, dəyəri);

3.5.5. malın mənşəyinin müəyyən edilməsinə kömək edəcək digər məlumatları təsdiq edən sənədlər (malın tarif təsnifatı, o cümlədən qablaşdırma və etiketlənmə, zavod nömrələri, model və tipləri).

3.6. Malın xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə təsnifatının və ya mənşə ölkəsinin müəyyən olunması ilə bağlı məcburi qərarın qəbul edilməsi zamanı şəxs tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 232 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gömrük ekspertizasının aparılması Qaydaları”na, müvafiq beynəlxalq və dövlət standartlarına uyğun olaraq götürülmüş prob və nümunələr təqdim edilməlidir.

3.7. Xarici dildə olan bütün sənədlər Azərbaycan dilinə tərcümə olunaraq təqdim edilməlidir.

## 4. Məcburi qərarın qəbul edilməsinə dair müraciətlərə baxılması

4.1. Azərbaycan Respublikasının “İnzibati icraat haqqında” Qanununa uyğun olaraq məcburi qərarın qəbul edilməsinə dair müraciətə qeydiyyata alındığı andan *ən geci 30 (otuz) gün müddətində* baxılır və gömrük orqanları tərəfindən məcburi qərar, yaxud onun qəbul edilməsindən imtinaya dair qərar qəbul edilir.

4.2. Qərarın qəbul edilməsi üzrə əhəmiyyət kəsb edən halların müəyyən olunması üçün bu Metodikanın 4.1-ci bəndində nəzərdə tutulmuş müddətdən daha artıq müddət tələb olunduğu halda, bu müddət gömrük orqanları tərəfindən *hər dəfə 30 (otuz) gün olmaqla 2 (iki) dəfə* uzadıla bilər. Gömrük orqanları tərəfindən müddətin uzadılması barədə maraqlı şəxsə məlumat verilir.

4.3. Qərarın qəbul edilməsi də daxil olmaqla, hər bir halda müraciətə baxılmanın *ümumi müddəti 90 (doxsan) gündən* çox ola bilməz.

4.4. Gömrük orqanları tərəfindən müraciətə baxılma mərhələsində bu Metodikada nəzərdə tutulmuş əhəmiyyətli halları müəyyən etmək üçün təqdim edilən məlumatlar natamam olduqda müraciət edən şəxsdən zəruri sənədlər tələb edilə bilər. Tələb olunan sənədlər *10 (on) gün müddətində* təqdim edilmədikdə müraciət baxılmamış saxlanılır və bu barədə şəxsə məlumat verilir.

4.5. Gömrük orqanları məcburi qərarın qəbul edilməsindən imtinaya və ya müraciətin baxılmamış saxlanılmasına dair bu Metodikada nəzərdə tutulan halları müəyyən etmədikdə, məcburi qərarlar qəbul edir.

4.6. Müraciət üzrə məcburi qərar qəbul edildikdə, şəxsə rəsmi qaydada bildirişlə birgə təqdim edilir.

4.7. **Məcburi qərarın qəbul edilməsi haqqında qərarda aşağıdakı məlumatlar göstərilir:**

4.7.1. müraciət etmiş şəxsə dair məlumat;

4.7.2. qəbul edilmiş malın təsnifat kodu və ya mənşə ölkəsinə dair məcburi qərarın qəbul edilməsinə dair məlumat;

4.7.3. qərarın nömrəsi, qəbul edilmə tarixi və qüvvədə olma müddəti;

4.7.4. qərarı qəbul etmiş gömrük orqanının vəzifəli şəxsinin soyadı, adı və vəzifəsi;

4.7.5. qərardan şikayətin verilməsi barədə şəxsin hüququ.

4.8. **Məcburi qərarın qəbul edilməsindən aşağıdakı hallarda imtina edilir:**

4.8.1. təqdim edilən məlumatlar yanlış olduqda;

4.8.2. müraciət mücərrəd, qeyri-müəyyən, yaxud qanunvericiliklə müəyyən edilmiş qadağa və məhdudiyyətlərin tətbiq edildiyi mallarla əlaqədar verildikdə;

4.8.3. malın təsnifatının və ya mənşə ölkəsinin müəyyən olunması üzrə məcburi qərarın qəbul edilməsi üçün əvvəlcədən gömrük ekspertizasının aparılması mümkün olmayan mallara (malın adı, markası, modeli, markalanması olmadıqda və ya pərakəndə satış üçün qablaşdırılmamış mallar olduqda və s.) dair müraciət edildikdə;

4.8.4. müraciət aidiyyəti şəxs tərəfindən təqdim edilmədikdə və ya müraciətə nümayəndənin səlahiyyətlərini təsdiq edən sənədlər əlavə olunmadıqda;

4.8.5. gömrük ekspertizasının aparılmasına görə tələb olunan gömrük yığımı ödənilmədikdə;

4.9. Müraciət üzrə məcburi qərarın qəbul edilməsindən imtina edildikdə, onun səbəbləri göstərilməklə şəxsə rəsmi qaydada bildirişlə birgə qərar təqdim edilir.

4.10. **Məcburi qərarın qəbul edilməsindən imtina haqqında qərarda aşağıdakı məlumatlar göstərilir:**

4.10.1. müraciət etmiş şəxsə dair məlumat;

4.10.2. məcburi qərarın qəbul edilməsindən imtinaya dair səbəb barədə məlumat;

4.10.3. qərarın nömrəsi, qəbul edilmə tarixi və qüvvəyə minmə tarixi;

4.10.4. qərarı qəbul etmiş gömrük orqanının vəzifəli şəxsinin soyadı, adı və vəzifəsi;

4.10.5. qərardan şikayətin verilməsi barədə şəxsin hüququ.

4.11. Bu Metodikanın 4.8-ci bəndində göstərilən səbəblər aradan qaldırıldıqdan sonra şəxs tərəfindən gömrük orqanlarına yenidən müraciət edilə bilər.

4.12. **Məcburi qərarın qəbul edilməsinə dair müraciət aşağıdakı hallarda baxılmamış saxlanılır:**

4.12.1. Azərbaycan Respublikasının "İnzibati icraat haqqında" Qanununa əsasən məcburi qərarın qəbul edilməsinə imkan verən əsaslar müraciətdə qeyd olunmadıqda və müəyyən edilmiş müddət ərzində bu çatışmazlıqlar aradan qaldırılmadıqda;

4.12.2. prob və nümunələrin təqdim edilməsi mütləq olan hallarda ərizəçiyə xəbərdarlıq edilməsinə baxmayaraq onlar təqdim edilmədikdə;

4.12.3. məcburi qərar qüvvədə olduğu müddətdə eyni şəxs tərəfindən eyni mala dair təkrar müraciət edildikdə (natamamlıqların aradan qaldırılması və malın xüsusiyyətinin dəyişdirilməsi halları istisna olmaqla);

4.12.4. məcburi qərar barədə məhkəmənin qüvvəyə minmiş qərarı olduqda, yaxud məhkəmədə icraat aparıldıqda.

4.13. Məcburi qərarın qəbul edilməsinə dair müraciət baxılmamış saxlanıldıqda, onun səbəbləri göstərilməklə şəxsə rəsmi qaydada bildirişlə birgə qərar təqdim edilir.

4.14. **Məcburi qərarın qəbul edilməsinə dair müraciətin baxılmamış saxlanılması haqqında qərarda aşağıdakı məlumatlar göstərilir:**

4.14.1. müraciət etmiş şəxsə dair məlumat;

4.14.2. məcburi qərarın qəbul edilməsinə dair müraciətin baxılmamış saxlanılması barədə məlumat;

4.14.3. qərarın nömrəsi, qəbul edilmə tarixi və qüvvəyə minmə tarixi;

4.14.4. qərarı qəbul etmiş gömrük orqanının vəzifəli şəxsinin soyadı, adı və vəzifəsi;

4.14.5. qərardan şikayətin verilməsi barədə şəxsin hüququ.

4.15. Bu Metodikanın 4.12-ci bəndində göstərilən hallar aradan qaldırıldıqdan sonra şəxs tərəfindən gömrük orqanlarına yenidən müraciət edilə bilər.

4.16. Şəxs gömrük orqanları tərəfindən qəbul edilmiş məcburi qərardan və qərarın qəbul edilməsindən imtinadan Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 10-cu fəslinə uyğun olaraq şikayət vermək hüququna malikdir.

## 5. Məcburi qərarın dəyişdirilməsi və ya ləğv edilməsi

**5.1. Məcburi qərarın qəbul edilməsi zamanı malın təsnifatının və mənşə ölkəsinin müəyyənləşdirilməsinə təsir etməyən dəyişikliklər aşkar edildikdə, maraqlı şəxslərin müraciəti əsasında gömrük orqanları tərəfindən məcburi qərarda dəyişikliklər edilə bilər.**

**5.2. Gömrük orqanları tərəfindən məcburi qərarlar aşağıdakı hallarda ləğv edilir:**

5.2.1. Gömrük Məcəlləsinin 50.5-ci maddəsində nəzərdə tutulmuş hallarda;

5.2.2. məcburi qərar verilmiş mallarda tərkibin, funksiyanın, tətbiq sahəsinin, həmçinin istehsalçı müəssisənin və ölkənin dəyişilməsi müəyyən edildikdə;

5.2.3. məcburi qərar qəbul edilərkən istinad edilən qanunvericilik aktları, o cümlədən ekspertiza zamanı istifadə olunan beynəlxalq və dövlət standartları dəyişdirildikdə, yaxud ləğv edildikdə;

5.2.4. Komitənin Apellyasiya Şurasının qərarı əsasında fərqli qərar qüvvəyə mindikdə;

5.2.5. məhkəmənin qərarı olduqda.

5.3. Məcburi qərar ləğv edildikdə, onun səbəbləri göstərilməklə şəxsə rəsmi qaydada bildirişlə birgə qərar təqdim edilir.

5.4. **Məcburi qərarın ləğv edilməsi haqqında qərarda aşağıdakı məlumatlar göstərilir:**

5.4.1. məcburi qərar əldə etmiş şəxsə dair məlumat;

5.4.2. məcburi qərar barədə məlumat;

5.4.3. məcburi qərarın ləğv edilməsinə dair əsaslandırma barədə məlumat;

5.4.4. qərarın nömrəsi, qəbul edilmə tarixi və qüvvəyə minmə tarixi;

5.4.5. qərarı qəbul etmiş gömrük orqanının vəzifəli şəxsinin soyadı, adı və vəzifəsi;

5.4.6. qərardan şikayətin verilməsi barədə şəxsin hüququ.

5.5. Azərbaycan Respublikasının "İnzibati icraat haqqında" Qanununa əsasən məcburi qərar ləğv edildikdə onun ləğvetmə tarixindən *ən azı 6 (altı) ay keçdikdən sonra* şəxs eyni məsələ ilə bağlı yenidən məcburi qərar əldə etmək üçün müraciət edə bilər.

## 6. Məlumatların nəşri və məxfiliyi

**6.1. Qəbul edilmiş məcburi qərar digər xarici ticarət iştirakçılarının da maraq dairəsini əhatə edə biləcəyindən şəxsin razılığı əsasında Komitənin elektron portalında dərc edilir.**

**6.2. Komitə aşağıdakı məlumatların nəşrini və daimi yenilənməsini təmin edir:**

6.2.1. müraciət qaydaları və tələb olunan sənədlər;

6.2.2. məcburi qərarların qəbulu üçün müəyyən edilmiş müddət;

6.2.3. qəbul edilmiş məcburi qərarların etibarlılıq müddəti;

6.2.4. qəbul edilmiş məcburi qərardan şikayətin verilməsi barədə şəxsin hüququ;

6.2.5. qəbul edilmiş məcburi qərarlar üzrə dövlət, kommersiya, bank və qanunla mühafizə olunan digər məlumat və ya qərar sahibinə aid olan konfidensial məlumatlar istisna olmaqla, digər xarici ticarət iştirakçılarının maraq dairəsini əhatə edəcək məlumatlar.

6.3. Şəxsə dair məcburi qərar nəşr edilərkən məlumatın xarakterinə uyğun olaraq konfidensiallığı təmin edilir və şəxsin razılığı olmadan konfidensial xüsusiyyətə malik heç bir məlumat yayımlana bilməz.

## 7. Yekun müddəalar

**7.1. Məcburi qərar, müvafiq bildirişin və qərarın surətinin barəsində qərar çıxarılmış şəxsə təqdim olunduğu tarixdən qüvvəyə minir.**

7.2. Gömrük orqanı tərəfindən verilən məcburi qərarın icrası yalnız həmin qərarı əldə etmiş şəxsə münasibətdə gömrük orqanları üçün məcburi xarakter daşıyır.

7.3. Malların təsnifatının və mənşə ölkəsinin müəyyənləşdirilməsi üzrə gömrük orqanları tərəfindən qəbul edilmiş məcburi qərarlar *3 (üç) il ərzində* qüvvədə olur.

7.4. Məcburi qərarın qəbul edilməsindən imtina olunduqda və ya qəbul edilmiş məcburi qərar ləğv edildikdə, gömrük ekspertizasının aparılmasına görə ödənilmiş gömrük yığımları geri qaytarılmır.

7.5. Gömrük rəsmiləşdirilməsi zamanı məcburi qərar şəxs tərəfindən bəyannamə ilə birlikdə gömrük orqanına təqdim edildiyi zaman, malın mənşə ölkəsi və ya tarif təsnifatı həmin qərara əsasən müəyyən edilir. Məcburi qərarın təqdim edilməsi malların gömrük rəsmiləşdirilməsi zamanı gömrük orqanı tərəfindən onları eyniləşdirmək vəzifəsindən azad etmir.

7.6. Mənşə ölkəsinə dair məcburi qərarın mövcudluğu şəxsi mənşə ölkəsinə dair sənədləri təqdim etmək vəzifəsindən azad etmir.

7.7. Məcburi qərarın ləğvi barədə qərar qəbul edildikdə onun ləğvinə dair məhkəmə və ya Komitənin Apellyasiya Şurasının qərarının VAİS-də müvafiq qaydada qeydiyyatı aparılaraq həmin məlumatlar VAİS-də deaktiv statusda saxlanılır.

7.8. Bu Metodikanın 5.2.1-ci yarımbəndinə uyğun olaraq məcburi qərar ləğv edildikdə Gömrük Məcəlləsinin 98.1-ci maddəsinə əsasən gömrük auditi aparıla bilər.

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

## MALIN MƏNŞƏ ÖLKƏSİ ÜZRƏ MƏCBURİ QƏRARIN QƏBUL EDİLMƏSİNƏ DAİR MÜRACİƏT FORMASI

<table>
<tr><th colspan="4">1. MÜRACİƏT EDƏN ŞƏXS HAQQINDA MƏLUMAT</th></tr>
<tr><th colspan="2">Fiziki şəxs</th><th colspan="2">Hüquqi şəxs</th></tr>
<tr><td>Ad, soyad, ata adı</td><td></td><td>Adı</td><td></td></tr>
<tr><td>VÖEN</td><td></td><td>VÖEN</td><td></td></tr>
<tr><td>Daimi ünvanı</td><td></td><td>Hüquqi ünvanı</td><td></td></tr>
<tr><td>Əlaqə nömrəsi</td><td></td><td>Əlaqə nömrəsi</td><td></td></tr>
<tr><td>Elektron poçt ünvanı</td><td></td><td>Elektron poçt ünvanı</td><td></td></tr>
<tr><th colspan="4">2. MALIN TƏSVİRİNƏ DAİR MƏLUMAT</th></tr>
<tr><td colspan="2">Tarif təsnifatı (malın XİFMN üzrə kodu)</td><td colspan="2"></td></tr>
<tr><td colspan="2">İstehsal olunmuş malın mənşə kriteriyası</td><td colspan="2"></td></tr>
<tr><td colspan="2">Mənşə sertifikatını təqdim edən qurum, onun nömrəsi və tarixi</td><td colspan="2"></td></tr>
</table>

| Ərizəçi tərəfindən nəzərdə tutulan malın mənşə ölkəsi | *Mənşə ölkəsi* | *İxrac ölkəsi* | *İdxal olunan ölkə* |
|---|---|---|---|
| | | | |
| Daşınma növü | Avtomobil ☐ Hava ☐ Dəmiryolu ☐ Dəniz ☐ Poçt ☐ | | |

**3. MALIN İSTEHSAL PROSESİNƏ DAİR ƏTRAFLI MƏLUMAT**

**4. İDXAL OLUNAN MALIN İSTEHSALINDA İSTİFADƏ EDİLƏN MATERİALLAR BARƏDƏ MƏLUMAT**

| *Materialların təsviri* | *Tarif təsnifatı* | *Mənşə ölkəsi* | *Dəyəri* | *İnvoysun nömrəsi və tarixi* | *Digər* |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |

***Qeyd:*** *İstifadə olunan materialların sayı çoxdursa cədvəl artırıla bilər.*

**5. MALIN PREFERENSİAL VƏ YA QEYRİ-PREFERENSİAL MƏNŞƏYİ**

Preferensial* ☐ Qeyri-preferensial ☐

***Qeyd:*** *Əgər preferensialdırsa, tənzimləyici sənədin adını qeyd edin.*

**6. PROB VƏ NÜMUNƏLƏR HAQQINDA MƏLUMAT**

*Prob və nümunələr təqdim edilir?*

Bəli ☐

Xeyr ☐

*Aşağıdakılardan hansı formada prob və nümunə təqdim edilir?*

Broşür ☐ Şəkil ☐ Nümunə ☐

Prob ☐ Digər ☐

*Əgər təqdim edilirsə, onların qaytarılmasını istəyirsiniz?*

Hə ☐ Yox ☐

| **7. MALIN MƏNŞƏ ÖLKƏSİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNƏ YARDIMÇI OLA BİLƏCƏK ƏLAVƏLƏR** |
| --- |
| Sənədlər ☐ Texniki sxemlər ☐<br>Şəkillər ☐ Digərləri ☐ |
| ***Qeyd:*** *Mənşə ölkəsinin müəyyənləşdirilməsinə yardımçı ola biləcək əlavələrin surəti bu formaya əlavə olunmalıdır.* |
| **8. DAHA ƏVVƏL EYNİ VƏ YA OXŞAR MALA DAİR MƏCBURİ QƏRAR ÜÇÜN MÜRACİƏT ETMİSİNİZ?** |
| ***Qeyd:*** *Əgər etmisinizsə, zəhmət olmasa müraciətə dair məlumatları və gömrük orqanı tərəfindən verilmiş məcburi qərarın nömrəsini qeyd edin.* |
| |

***Qeyd:*** *Malın mənşə ölkəsi ilə bağlı məcburi qərarın qəbul edilməsi ilə əlaqədar aşağıdakı sənədlərdən birinin və ya bir neçəsinin şəxs tərəfindən elektron formada təqdim olunması zəruridir (sənədlər bu formaya əlavə edilərək bir fayl (PDF) şəklindən şəxsi kabinet vasitəsilə təqdim edilməlidir):*

- müraciət nümayəndə tərəfindən verildikdə onun səlahiyyətlərini təsdiq edən sənədlər (etibarnamə və s.);
- idxal olunması nəzərdə tutulan malın müxtəlif bucaqlardan çəkilmiş yüksək görüntü keyfiyyətinə malik rəngli şəkilləri (hər bir mal üçün);
- keyfiyyət sertifikatları, sınaq protokolları, akkreditə olunmuş ekspert təşkilatlarının ekspertiza aktları və s.;
- texniki və normativ-texniki sənədlər (texniki pasportlar, reseptlər və s.);
- üzvi və qeyri-üzvi mallara, kimyəvi maddələrə və tərkiblərə dair Maddənin təhlükəsizlik məlumatları (MSDS - Material safety data sheet) və Texniki məlumat vərəqi (TDS - Technical data sheet) sənədləri;
- sxemlər, çertyojlar, təqdimat və məlumat broşürləri;
- istehsal mərhələləri bir və ya bir neçə ölkədə baş verdiyi halda, həyata keçirilən istehsal və ya emal proseslərinə dair sənədlər;
- malın istehsal prosesinin vəziyyətinə dair məlumatları təsdiq edən sənədlər (çeşidli yığılma, toplam yığılma və s.);
- müqavilə;
- invoys;
- spesifikasiya;
- qablaşdırma vərəqəsi;

- idxal olunan malın istehsalında istifadə edilən materiallara dair məlumatları əks etdirən sənədlər (materialların təsviri, tarif təsnifatı, mənşə ölkəsi, dəyəri);
- malın mənşəyinin müəyyən edilməsinə kömək edəcək digər məlumatları təsdiq edən sənədlər (malın tarif təsnifatı, o cümlədən qablaşdırma və etiketlənmə, zavod nömrələri, model və tipləri).

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

## MALIN TƏSNİFATI ÜZRƏ MƏCBURİ QƏRARIN QƏBUL EDİLMƏSİNƏ DAİR MÜRACİƏT FORMASI

| 1. MÜRACİƏT EDƏN ŞƏXS HAQQINDA MƏLUMAT | | | |
|---|---|---|---|
| **Fiziki şəxs** | | **Hüquqi şəxs** | |
| Ad, soyad, ata adı | | Ad, soyad, ata adı | |
| VÖEN | | VÖEN | |
| Daimi ünvanı | | Daimi ünvanı | |
| Əlaqə nömrəsi | | Əlaqə nömrəsi | |
| Elektron poçt ünvanı | | Elektron poçt ünvanı | |

| 2. MALIN TƏSVİRİNƏ DAİR MƏLUMAT | |
|---|---|
| Malların ətraflı təsviri | |
| Ərizəçi tərəfindən nəzərdə tutulan malın XİFMN kodu | |
| Malın istifadə üçün nəzərdə tutulmuş təyinatı | |

| | |
|---|---|
| Daşınma növü | Avtomobil ☐ Hava ☐ Dəmiryolu ☐ Dəniz ☐ Poçt ☐ |

**3. PROB VƏ NÜMUNƏLƏR HAQQINDA MƏLUMAT**

*Prob və nümunələr təqdim edilir?*

Bəli ☐ Xeyr ☐

*Aşağıdakılardan hansı formada prob və nümunə təqdim edilir?*

Broşür ☐ Şəkil ☐ Nümunə ☐

Prob ☐ Digər ☐

*Əgər təqdim edilirsə, onların qaytarılmasını istəyirsiniz?*

Hə ☐ Yox ☐

**4. MALIN TƏSNİFATININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİNƏ YARDIMÇI OLA BİLƏCƏK ƏLAVƏLƏR**

Sənədlər ☐ Texniki sxemlər ☐

Şəkillər ☐ Digərləri ☐

**Qeyd:** *Təsnifatın müəyyənləşdirilməsinə yardımçı ola biləcək əlavələrin surəti bu formaya əlavə olunmalıdır.*

**5. DAHA ƏVVƏL EYNİ VƏ YA OXŞAR MALA DAİR MƏCBURİ QƏRAR ÜÇÜN MÜRACİƏT ETMİSİNİZ?**

**Qeyd:** *Əgər etmisinizsə, zəhmət olmasa müraciətə dair məlumatları və gömrük orqanı tərəfindən verilmiş məcburi qərarın nömrəsini qeyd edin.*

**Qeyd:** *Malın təsnifat kodu ilə bağlı məcburi qərarın qəbul edilməsi ilə əlaqədar aşağıdakı sənədlərdən birinin və ya bir neçəsinin şəxs tərəfindən elektron formada təqdim olunması zəruridir (sənədlər bu formaya əlavə edilərək bir fayl (PDF) şəklində şəxsi kabinet vasitəsilə təqdim edilməlidir):*

- müraciət nümayəndə tərəfindən verildikdə onun səlahiyyətlərini təsdiq edən sənədlər (etibarnamə və s.);
- idxal olunması nəzərdə tutulan malın müxtəlif bucaqlardan çəkilmiş yüksək görüntü keyfiyyətinə malik rəngli şəkilləri (hər bir mal üçün);
- keyfiyyət sertifikatları, sınaq protokolları, akkreditə olunmuş ekspert təşkilatlarının ekspertiza aktları və s.;
- texniki və normativ-texniki sənədlər (texniki pasportlar, reseptlər və s.);
- üzvi və qeyri-üzvi mallara, kimyəvi maddələrə və tərkiblərə dair Maddənin təhlükəsizlik məlumatları (MSDS - Material safety data sheet) və Texniki məlumat vərəqi (TDS - Technical data sheet) sənədləri;
- sxemlər, çertyojlar, təqdimat və məlumat broşürləri;
- müqavilə;
- invoys;

- spesifikasiya;
- qablaşdırma vərəqəsi.

## Məcburi qərarın qəbul edilməsinə dair şəxs tərəfindən yerinə yetirilməli olan hərəkətlər

**Müraciətin təqdim edilməsi:**

1. Məcburi qərarın qəbul edilməsinə dair müraciət formasının doldurulması məqsədilə Dövlət Gömrük Komitəsinin "e.customs.gov.az" portalı vasitəsilə şəxsi kabinetə giriş edilir.
2. Şəxsi kabinet üzərindən "Müraciətlər" alt bölməsinə daxil olunur və yeni müraciət yaradılır.
3. Müraciətin növü olaraq, "Məcburi qərar (təsnifat kodu üzrə)" yaxud "Məcburi qərar (mənşə ölkəsi üzrə)" seçilir.
4. Müraciətin ünvanlandığı gömrük orqanı seçilir.
5. Müraciətin qısa məzmunu hissəsində idxalı və ya ixracı planlaşdırılan mala dair məlumatlar qeyd olunur.
6. "Məcburi qərarlar" altbölməsindən endirilməklə doldurulmuş forma müraciətə əlavə edilərək gömrük orqanına təqdim olunur.
7. Şəxs müraciət ilə bağlı gömrük orqanı tərəfindən ona bildirilən çatışmazlıqlar barədə məlumatı aldığı tarixdən ən geci 10 (on) gün müddətində aradan qaldırmalıdır. Müvafiq çatışmazlıqlar qeyd olunan müddət ərzində aradan qaldırılmadıqda müraciət baxılmamış saxlanılır və bu barədə şəxsə məlumat verilir.

**Məcburi qərarın tətbiqi:**

- Bəyannamə gömrük təmsilçisi tərəfindən doldurularsa, şəxs tərəfindən məcburi qərarın mövcudluğuna dair məlumatlar ona bildirilməlidir.
- Bəyannamənin 44-cü qrafasında məcburi qərara dair sənədin kodu (5013 və ya 7001), nömrəsi və tarixi qeyd edilir.
- Məcburi qərar ilə malın mənşə ölkəsinə dair verilmiş məlumatlar bəyannamənin 16-cı qrafasında göstərilir.
- Məcburi qərar ilə malın təsvirinə dair təqdim edilmiş məlumatlar bəyannamənin 31-ci qrafasında əks etdirilir.
- Məcburi qərar ilə malın təsnifatına dair verilmiş kod bəyannamənin 33-cü qrafasına daxil edilir.
- Məcburi qərar ilə 16-cı qrafada müəyyən edilmiş malın mənşə ölkəsi kodu bəyannamənin 34-cü qrafasına daxil edilir.